AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

«Beynəlxalq münasibətlər» kafedrası

*Bakalavr hazırlığı üçün*

# AZƏRBAYCAN DİPLOMATİYASI

**fənninin**

# P R O Q R A M I

**BAKI – 2010**

Proqram Azərbaycan Dövlət İqtisad Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasında hazırlanmışdır.

**Tərtib edən:** t.e.n.R.M.Qurbanov

**Redaktor:** prof.B.M.Abdullayev

**Rəyçilər:** **prof. V.S.Həsənov**

**dos. Ə.Ə.Ələsğərzadə**

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-metodiki Şurasının "Sosial-siyasi elmlər" bölməsinin 08 iyul 2010 il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (9 saylı protokol)

*Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra, müstəqil dövlətimiz beynəlxalq münasibətlərin subyektinə çevrilmişdir. «Azərbaycan diplomatiyası» fənninin tədrisində tələbələrimiz diplomatiyanın xarici siyasətdə tutduğu yeri, Azərbaycanın müstəqil dövlətçiliyi tarixində fəaliyyət göstərmiş tanınmış diplomatlarımız haqqında məlumatlar alırlar. Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvünə çevrildikdən sonra dövlətimizin müxtəlif ölkələrlə və xalqlarla qarşılıqlı əlaqələrinin öyrənilməsi zərurəti meydana çıxır. Bu baxımdan Azərbaycan diplomatiyasının yaranması və inkişafı prosesi, onun xarici siyasətində diplomatiyanın yeri böyük maraq doğurur. «Azərbaycan diplomatiyası» fənninin tədrisi bu zərurətdən irəli gəlmişdir.*

*Proqramın hazırlanmasında məqsəd «Azərbaycan diplomatiyası» fənninin öyrənilməsində tələbələrə yardımçı olmaqdır. Bu məqsədlə proqramın sonunda mövcud dərsliklərin, dərs vəsaitlərinin və metodik göstərişlərin siyahısı verilmişdir.*

# GİRİŞ

Azərbaycan diplomatiyası kursunun predmeti. Kursun tədrisinin əhəmiyyəti. Azərbaycan diplomatiyasının məqsəd və vəzifələri. Azərbaycan diplomatiyası kursunun quruluşu, məzmunu, öyrənilməsinin metod və formaları. Diplomatiyanın xarici siyasətdə tutduğu yer. Müxtəlif ölkələrlə və xalqlarla qarşılıqlı əlaqələrin öyrənilməsi. Müxtəlif dövrlərdə Azərbaycan dövlətlərinin dünya siyasətinin formalaşmasında rolu. Qədim Azərbaycan dövlətlərinin siyasi əlaqələri. Orta əsr dövlətlərinin diplomatik əlaqələri ilk mənbələrdə. Azərbaycan diplomatiyasının mənbəşünaslığı. Diplomatik məktublar, müqavilələr, sənədlər və beynəlxalq aktlar. Azərbaycan diplomatiyasının tarixşünaslığı.

## II MÖVZU

## *XV əsrdə Azərbaycanın Avropa dövlətləri ilə diplomatik əlaqələri.*

Azərbaycanın diplomatik əlaqələrinin iqtisadi əsası. Azərbaycanın qərb dövlətləri ilə ticarət əlaqələri. Avropa-Asiya iqtisadi əlaqələrinin həyata keçirildiyi başlıca rayonlar. Avropa-Şərq iqtisadi əlaqələrində Azərbaycanın yeri. Diplomatik əlaqələrdə xarici–siyasi amilin rolu. Qaraqoyunlu zamanında xarici siyasətin əsas istiqamətləri. Qaraqoyunlu dövlətinin Teymurilər dövləti ilə əlaqələri. Ağqoyunlu-Avropa diplomatik əlaqələrinin başlanması. Türkiyə əleyhinə hərbi-siyasi ittifaq. 9 aprel 1454-cü il Lodi müqaviləsi.

Osmanlı-Venesiya müharibəsi və Ağqoyunlu dövləti. Sara xatının diplomatik fəaliyyəti. Ağqoyunlu dövlətinin

Trabzon yunan dövləti ilə əlaqələri. Ağqoyunlu dövləti və Qaraman bəyliy.

Uzun Həsənin Qaraman səfəri. Moskva knyazlığı ilə əlaqələr. Qaraqoyunlulara və Teymurilərə qarşı mübarizə. Osmanlı imperiyasının qərbə doğrü irəliləməsi. Osmanlı imperiyasına qarşı Asiya və Avropa dövlətlərinin hərbi-siyasi koalisiyası. Antitürkiyə koalisiyasının üzvləri arasında ziddiyyətlər. Ağqoyunlu-Avropa əlaqələrinin genişlənməsi. Uzun Həsənin hərbi-siyasi tədbirləri. Avropa diplomatları Ağqoyunlu sarayında. (Katerino Zeno, İosafat Barbaro, Ambrocco Kontarini, Covanni Dario və başqaları). XV əsr Azərbaycan diplomatları. (Murad bəy, Hacı Məhəmməd, İshaq və başqaları). Ağqoyunlu Osmanlı müharibəsi və Avropa diplomatiyası. XV əsrin 70-80-ci illərində Ağqoyunlu-Avropa diplomatik əlaqələri.

## III MÖVZU

### *Azərbaycan Səfəvi dövlətinin Avropa dövlətləri ilə diplomatik əlaqələri (XVI əsr).*

Qərb diplomatiyasının şərq siyasəti. Səfəvi-Osmanlı münasibətləri və qərb diplomatiyası. Venesiya diplomatı Konstantino Laskari Azərbaycan haqqında. Səfəvilərin Avropa dövlətləri ilə ilk diplomatik əlaqələri. Osmanlı imperiyasının Şərq siyasəti. Venesiya-Türkiyə müharibəsi (1499-1502). Avropa dövlətləri arasında ziddiyyətlər. Fransa və İspaniyanın İtaliya müharibələri (1494-1559) və Venesiya diplomatiyası. Səfəvi-Portuqaliya əlaqələri. Portuqaliyanın Şərq siyasəti. Portuqaliyanın Hind okeanı hövzəsində möhkəmlənməsi. Osmanlı-Portuqaliya rəqabəti. Çaldıran döyüşündən sonra Azərbaycanın Avropa dövlətləri ilə diplomatik əlaqələri. Osmanlı imperiyasının Yaxın Şərq işğal

etməsi. Sultan Səlimin işğalları və Avropa dövlətləri. XVI əsrin 30-cu illərində Osmanlı imperiyasının Şərq siyasəti. Səfəvi-Osmanlı müharibələri və Avropa diplomatiyası. Venesiya-Türkiyə müharibəsi (1538-1540). Səfəvi dövləti və beynəlxalq münasibətlər (XVI əsrin 30-50-ci illəri). Səfəvi övləti və İngiltərənin «Moskva» kompaniyası. «Moskva» kompaniyasının Şərq siyasəti. «Moskva» kompaniyasının təmsilçisi Entoni Cenkinson. Səfəvi-İngiltərə ticarət əlaqələri. Venesiya diplomatı Vinçentso Alessandri. XVI əsrin ortalarında Azərbaycan Avropa münasibətləri. Səfəvi-Rusiya münasibətləri Volqa-Xəzər ticarət yolu. XVI əsrin 70-80-ci illərində Səfəvi-Avropa əlaqələri. Səfəvi diplomatı Xoca Məhəmmədin Venesiya səfəri. XVI əsrin 70-80-ci illərində Səfəvi-Osmanlı müharibələri və Avropa diplomatiyası.

## IV MÖVZU
## *XVI əsrin sonu – XVII əsrdə Səfəvi-Avropa diplomatik əlaqələri.*

Şah I Abbasın islahatları. Şah Abbas dövründə Səfəvi dövlətinin qərb ölkələri ilə diplomatik əlaqələri. Avropa dövlətlərinin iqtisadi və hərbi-siyasi mənafeləri. Şah Abbasın xarici siyasətinin başlıca vəzifəsi. İran körfəzi uğrunda qərb dövlətlərinin rəqabəti. Səfəvi dövlətinin Avropa dövlətlərinə böyük elçiliyi (1599-cu il). İffət bəyin başçılıq vetdiyi diplomatik nümayəndəliyin Venesiya səfəri (1600-cü il).

Səfəvi-Osmanlı müharibəsi və Avropa diplomatiyası. Osmanlı dövlətinin şərq siyasətinin uğursuzluğu. XVII əsrin 20-30-cu illərində Səfəvi-Osmanlı münasibətləri. Qəsri-Şirin sülhü və Azərbaycan diplomatiyası. XVII əsrin 20-30-cu illərində Qərbi Avropa ölkələri ilə münasibətlər. İran körfəzi

uğrunda mübarizə. Avropa dövlətlərinin Şərqdə müstəmləkə işğalları. Şah Abbasın Venesiya respublikası ilə ticarət əlaqələrini genişləndirməsi. Səfəvi dövləti və İngiliis Ost-Hind kompaniyası. Azərbaycan-Rusiya münasibətləri. Azərbaycan-Rusiya ticarət əlaqələri. Azərbaycan diplomatiyasının xüsusiyyətləri. Azərbaycanın Rusiya və Türkiyə arasında raqəbat meydanına çevrilməsi.

## V MÖVZU
### *Azərbaycan xanlıqlarının xarici siyasəti. Azərbaycan diplomatları.*

Azərbaycan xanlıqlarının yaranması və beynəlxalq münasibətlər. Quba, Şəki, Qarabağ və Urmiya xanlıqlarının Azərbaycanın birləşdirilməsi uğrunda mübarizəsi. Qubalı Fətəli xanın diplomatiyası. Rusiya ilə münasibətlər. Şimal-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsi. Rusiya, İngiltərə, Fransa, Türkiyə və İranın Cənubi Qafqazda maraqları. Rusiyanın Qafqaz siyasətinin fəallaşması. İran və Rusiyanın Azərbaycan xanlıqlarına müdaxilə üçün diplomatik hazırlığı. Azərbaycan-Gürcüstan münasibətləri. Azərbaycan-Türkiyə münasibətləri. Azərbaycan xanlıqlarının İranla münasibətləri. Qarabağ xanlığı və Əbülfət xan, Məhəmmədqulu bəy, Vaqifin diplomatik fəaliyyəti. Quba xanlığının dplomatik əlaqələrində Əfrasiyab bəy, Mirzə bəy Fərhadbəyov, Mirzə Kərbəlayi bəy, Mirzə Sadıx, Məhəmməd bəy və başqalarının rolu. Talış xanlığının diplomatik əlaqələrində Zaman bəy, Kərbəlayi Əsədulla bəy və Mirzə Məhəmməd bəyin rolu. Şirvan xanlığı və Hacı Cəbrayılın diplomatik fəaliyyəti. İrəvan xanlığı və Aslan bəyin diplomatik fəaliyyəti. Rusiya-İran münasibətləri və Azərbaycan. Rusiyanın Şimali Azərbaycan xanlıqları

uğrunda mübarizəsi. İngiltərə-İran yaxınlaşması. Rusiya-İran diplomatik danışıqları. Gülüstan müqaviləsi. Azərbaycanın istiqlaliyyətinin itirilməsi və beynəlxalq nəticələri.

## VI MÖVZU
### *Azərbaycan Xalq Cümhuriyyətinin diplomatiyası.*

XX əsrin əvvəllərində Azərbaycan dövlətçiliyinin bərpası uğrunda siyasi-diplomatik mübarizə. Trabzon-Batum konfransları və Azərbaycan. Batum konfransı və Qafqaz diplomatiyası. Batum müqaviləsi və onun əhəmiyyəti. İstanbul konfransı məsələsi və Azərbaycan. İstanbul konfransı ərəfəsində diplomatik danışıqlar. Azərbaycan Xalq Cümhuriyyəti diplomatiyasının ilk addımları. Bakı nefti və Sovet-alman sövdələşməsi. Bu sövdələşməyə qarşı Osmanlı və Azərbaycan diplomatiyalarının mübarizəsi. Bakının qurtuluşu uğrunda diplomatik mübarizə. Dağlılar respublikası ilə əlaqələr və Azərbaycan diplomatiyası. Azərbaycanın Qars respublikasına siyasi-diplomatik dəstəyi. Azərbaycan-Türkiyə münasibətləri. Azərbaycan Xalq Cümhuriyyəti diplomatiyası ingilislərin idarəçiliyi şəraitində. AXC diplomatiyası və Antanta. AXC-Antanta münasibətlərində Ənzəli danışıqları. İngilislərin Azərbaycan dövlətçiliyinə yeni baxışının formalaşması. İngilis general-qubernatorluğunun ləğvi. Ə.Topçubaşovun diplomatik fəaliyyəti. Ə.Topçubaşovun İstanbul missiyasının məqsədləri. Ə.Topçubaşov və Paris sülh konfransı. AXC diplomatiyasının ərazi bütövlüyü uğrunda mübarizəsi. AXC-nin Gürcüstanla münasibətləri. Azərbaycan-Gürcüstan hərbi paktı. AXC-nin İranla münasibətləri. İranın Azərbaycana iddiaları. İranın Azərbaycanın müstəqilliyini tanıması. Azərbaycan-Ermənistan münasibətləri. Erməni-Azərbaycan

müharibəsi. Böyük dövlətlərin imperiya mənafeləri və Azərbaycan diplomatiyası. Rusiya işğalı ərəfəsində Azərbaycanın beynəlxalq vəziyyəti. AXC-nin süqutuna böyük və qonşu dövlətlərin münasibəti. Kommunistlərin hakimiyyətə gəlməsi.

## VII MÖVZU
## *Müasir beynəlxalq münasibətlər və Azərbaycan diplomatiyası.*

Azərbaycanın dövlət müstəqilliyinin bərpası. Respublikanın BMT-yə qəbulu. Azərbaycanın dünya dövlətləri ilə əlaqələrində beynəlxalq təşkilatların rolu. Azərbaycan Respublikasının dünya diplomatiyasına daxil olması. Azərbaycan Respublikasının diplomatik əlaqələri. Heydər Əliyev və Azərbaycan dövlətçiliyi. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılması ətrafında diplomatik danışıqlar. Azərbacyanın Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasında iştirakı. Beynəlxalq İqtisadi layihələr və Azərbaycan diplomatiyası. Müstəqil Azərbaycan Respublikası və Heydər Əliyev diplomatiyası. Heydər Əliyevin neft diplomatiyası və böyük dövlətlər. Azərbaycan diplomatiyasının çətinlikləri və uğurları. Türk dövlətləri arasında inteqrasiya problemləri. Dağlıq Qarabağ problemi və Azərbaycanın diplomatik fəaliyyəti. ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti. ATƏT-in Budapeşt, Lissabon və İstanbul zirvə toplantılarında problemin müzakirəsi. Region dövlətləri və Azərbaycan diplomatiyası. Azərbaycan Respublikasının Avropa inteqrasiya proseslərinə qoşulması. Azərbaycanın Avropa Şurasına qəbulu və beynəlxalq nəticələri. Dünya ölkələrinin enerji siyasəti və Azərbaycan diplomatiyası. Azərbaycanın türk dövlətləri ilə

əməkdaşlığında enerji və kommunikasiya diplomatiyasının yeri. Azərbaycanın diplomatik uğurlarında prezident İlham Əliyevin diplomatik-siyasi fəaliyyəti.

## ƏDƏBİYYAT SİYAHISI

### *Azərbaycan dilində*


1. H.Ə.Əliyev Müstəqillik yollarında.-B., 1997.
2. H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir. I-XIII kitablar.-B., 1996-2005.
3. R.Mehdiyev. H.Əliyev və müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası.- B., 1999.
4. Ə.M.Həsənov. Azərbaycanın xarici siyasəti. Avropa ölkələri və ABŞ (1991-1996).- B., 1998.
5. Ə.M.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.-B., 2005.
6. V.Abdullayev. Azərbaycan yeni diplomatiya məkanında.-B., 2000.
7. M.Abdullayev. Beynəlxalq münasibətlər tarixi. (XX əsr). I-II hissə.–B., 2000.
8. H.Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi.- B., 1992.
9. C.Həsənli. ADR beynəlxalq münasibətlərdə.-B., 1998.
10. B.Nəcəfov. Azərbaycan Demokratik Respublikası.-B., 1992.
11. İ.Musayev. Azərbaycanın xarici siyasəti.-B., 2008.
12. Y.Mahmudov. Səyyahlar Azərbaycana gəlir.-B., 1977.
13. Y.Mahmudov. Azərbaycanın Avrpopa ölkələri ilə əlaqələri (XV əsrin II yarısı).-B., 1986.
14. Y.Mahmudov. Azərbaycan diplomatiyası.-B., 1996.

15. M.Quliyev. Diplomatiya tarixinin bəzi məsələləri.-B., 2000.
16. S.Əliyarlı. Azərbaycan tarixi.-B., 1996.
17. F.Əsədov, A.Süleymanov. XVIII əsr Azərbaycan diplomatları.-B., 2000.
18. Ş.Həmidova. XVIII əsrin II yarısında Azərbaycan Gürcüstan münasibətləri tarixindən.-B., 1985.
19. Ş.Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə.-B., 1983.
20. S.Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi.-B., 1982.

### *Türk dilində:*

1. Koçu Reşat Ekrem. Fatih sultan Mehmed. İstanbul, 1953.
2. Koçu Reşat Ekrem. Türk zaferleri. İstanbul, 1952.
3. Kütükoğlu Bekir. Osmanlı-İran siyasi münasibetleri. (1578-1590). İstanbul, 1962.
4. İ.H.Uzunçarşılı. Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletleri. Ankara, 1969.
5. Dalsar Fahri. Türk sanayi və ticaret tarihinde Bursada ipekçilik. İstanbul, 1960.
6. Sümer Faruk. Safevi devletinin kuruluşu və gelişmesinde Anadolu türklerinin rolu. Ankara, 1976.
7. Akşin Apdulahat. Atatürkün diş politika ilkeleri və diplomatisi. Ankara, 1991.
8. Yönlübol Mehmet. Olaylarla Türk diş politikası (1919-1990). Ankara, 1990.
9. Ersanlı Bahar. Bağımsızlığın ilk yılları. Ankara., 1994.
10. Saray Mehmet. Azerbaycan türkleri tarihi, İstanbul 1993.

11. Oğütücü Mehmet. Türkiyede yeni bir ekonomik və ticari diplomasi stratejisine doğru. İstanbul, 1998.
12. Araz Osman Nuri. Azerbeycanın Hazar ekonomisi və stratejisi. İstanbul, 2001.

***Rus dilində:***

1. А.Аббасбейли, Е.Аббасбейли. Гейдар Алиев и мировая политика. Б., 1997.
2. А.Аббасбейли, А.Гасанов. Азербайджан в системе международных и региональных организаций. Б., 1999.
3. С.И.Чернявский. Новый путь Азербайджана. Москва, 2002.
4. И.Шукуров. дипломатия мира. Б, 1997.
5. Э.И.Эмир-Ильясова. Азербайджан в системе международных отношений. Б., 2000.
6. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. Б., 1998.
7. Г.Б.Абдуллаев. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Б., 1965.
8. Дж.М.Мустафаев. Северные ханства Азербайджана и Россия. Б., 1995.
9. Я.Махмудов Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Б., 1991.
10. Я.Махмудов. Место торговых центров Восточного Средиземноморья во взаимоотношениях Азербайджана с европейскими странами (II половина XV-XVI вв.). Б., 1989.

11. Я.Махмудов. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с европейскими странами (II половина XV - начало XVII века). Б., 1987.
12. А.Н.Гусейнов. Азербайджано-русские отношения XV-XVII вв. Б., 1963.
13. А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 года). Б., 1981.
14. О.А.Эфендиев. Азербайджанское государство Сефевидов в XVI веке. Б., 1981.
15. Н.Н.Туманович. Европейские державы в Персидском заливе в XVI-XIX вв. Москва, 1982.